**Zahid Avşar ELOĞLU**

## Vaxtıdır

Zümrüd geyib yaşıl orman, göy meşə
Təbiətin bal ələnən vaxtıdır.
Çəmən dönüb beçə bala, kişmişə,
Lalələrin düymələnən vaxtıdır.

Dan sökülür, xəbəri yox gecədən,
Şeh tökülür, hər ləçəyə neçə dən,
Selin, suyun dərələri çeçədən,
Qayaların silkələnən vaxtıdır.

Qarın, buzun əldən düşüb üzülən,
Sonaların gərdən çəkib düzülən,
Fərələrin baxışları süzülən,
Çəpişlərin təkələnən vaxtıdır.

Bənd olmuşam bu yerlərin yelinə,
Obasına, oymağına, elinə,
Gözəllərin yanağına, telinə,
Sığal verib, cilvələnən vaxtıdır.

Sallanıbdı tər əvəlik, qırxbuğum,
Ölçimləyim, qucağıma qoy yığım,
Hər gecədə hər ağacın bir buğum,
İriləşən, yekələnən vaxtıdır.

## Qarabağ

Burda hiddətlidir hər daş, hər qaya,
Dağların təkindən qıy qopub gəlir.
Qıy qıya bağlıdır, burda, hay haya,
Çaylar da Heyratı üstə dincəlir.

Zirvələr əl atıb uca göylərə,
Çınqıllar nər kimi diz-dizə durur.
Dərə var, mən dərə deyim ey... sənə,
Helləsən hellanı yollarda yorur.

Uzaqda dolanan min bölük bulud,
Bir topa dumanın toruna düşür.
Dərin kahalara qısılan sükut,
Çaxan ildırımın qoruna düşür.

Bir də görürsən ki, iki ər kimi,
Buludlar qeyzlə baş-başa gəlir.
Şimşək qılıncını sıyırıb göylər,
Elə bil, dünyanın bağrını dəlir.

Şıdırğı bir yağış döyür dağları,
Selovlar kükrəyib limhəlim olur.
Qorxudan yarılır qayanın bağrı,
Buludlar sıxılıb bir əlçim olur.

Bu yerdə Vaqifin, Xurşudbanunun,
Cabbarın, Seyidin ruhu dolanır.
Od oğlu Babəkin, Qoç Koroğlunun,
Dədəmiz Qorqudun odu qalanır.

Bir az asta yeri, ehtiramla gəz,
Bu torpaq ərənlər torpağıdır, bil!
Keçilməz qaladır burdakı hər gəz,
Bu yurd əyilməyib, əyilən deyil!

Bu yerin hər qarış torpağı, daşı,
Ana laylasıyla yoğrulub, bişib.
Bu döyüşkən yurdun bəlalı başı,
Döyüşə-döyüşə müqəddəsləşib...

## Lalələr

Bir gəlinin Günəş rəngli boyunbağı qırılıb,
təpələrə səpilib,
Bir çobanın ocağının axça közü dağılıb,
dərələrə tökülüb,
Sübh çağında kainatın tül pərdəsi sökülüb,
ulduzlar yerlə-yeksan,
Bu gözəllik düzənlərə, çəmənlərə yığılıb
baxıb valeh olmusan...

## Cığırla

Talaların sinəsi cadar-cadar axıbdı,
Gədiklər öz belinə gümüş toqqa taxıbdı.

Dolu döyən dağların zirvəsində bərq vuran,
Şimşəkləri dağlara vurub salıb bir çoban.

Sudan gələn gözəlin hörüyündən iz düşüb,
Buludlardan od qopub, dərələrə çöz düşüb.

Yamac boyu bir örkən sürünübdü suada,
Çınqıllar xam day kimi sarınıbdı burada.

Ərimizdən sal qaya yetərincə sel sorub,
Çiyni üstə qaldırıb, taxıl kimi sovurub.

Obadan başlanan yol, tora düşüb örüşdə,
Duvaq-duvaq dağlarda doğram-doğram əriştə.

Dünya Yer kürəsini sıxıb şələ eləyib,
Cığır sicimləriylə kürəyinə şəlləyib...

## Süzülürdü

Bu gecə yuxuma girmişdin mənim,
Alma yanağından al süzülürdü.
Pətəkdə getmişdi huşu beçənin,
Qaymaq dodağından bal süzülürdü.

Batmışdın süsənə, şehli nərgizə,
Ahu mat qalmışdı səndəki gözə,
Şəlalə saçların dağılmış üzə,
Lalənin bağrından xal süzülürdü.

Hilal utanırdı çatma qaşından,
Ağlım çaşıb, huşum qaçıb başımdan,
Tutaş kipriyində donan yaşından,
Məni ağuşuna al süzülürdü.

Elçi göndərimmi elinə indi?
Əlimi verimmi əlinə indi?
Bu qış hardan gəlib başına endi?
Sarı saçlarına çal süzülürdü.

Sən haçan gəlmisən bizim dağlara?
Saz gətir, söz qoşum sən kimi yara,
Ömrün payızında gələn bahara,
Bir "Yanıq Kərəmi" çal süzülürdü.
Bir "Yanıq Kərəmi" çal süzülürdü.

## Qonubdu

Səni yaradana, verənə şükür,
Qarşıma dünyanın varı qonubdu.
İçim püçur-püçur, isti tər tökür,
Sanki, işıqfora sarı qonubdu.

Gəlib tuş olmuşam qar çiçəyinə,
Saçları sığışmır tül örpəyinə,
Mərmər sinəsinə, dar köynəyinə,
Bəhrəli bağların barı qonubdu.

Bu elə qismətdi, kal yeyə bilməz,
Bu bağda nübara əl dəyə bilməz,
Gözün dediyini dil deyə bilməz,
Dinmə, dodağına arı qonubdu.

Gör neçə dəli var, yerə bağlanıb,
Qaya zəncirlənib, dərə bağlanıb,
Keçidlər tutulub, bərə bağlanıb,
Yollara dağların tarı qonubdu.

Zahidin ürəyi gözündən yazıq,
Gözəlin göyçəyi özündən yazıq,
Sənə nə deyim ki, axı, mən yazıq,
Başıma dağların qarı qonubdu.

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 21 may.- S. 21.**